1 - 4_Layout 1 14.10.2021 10:40 Page 1

*Daxili Qoşunların üzərinə çox böyük vəzifələr düşür və bunlar uğurla yerinə yetirilir.*
**İlham ƏLİYEV**


# ƏSGƏR

№ 19 (609)

15 oktyabr 2021-ci il

Qəzet 1992-ci il dekabrın 16-dan nəşr olunur.

Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının HƏRBİ VƏTƏNPƏRVƏRLİK qəzeti


# Qalib KOMANDAN, qətiyyətli LİDER, qurucu PREZİDENT

**“Azərbaycan” qəzetinin müxbiri Rəşad Baxşəliyevin müəllifi olduğu “Qalib Komandan, qətiyyətli Lider, qurucu Prezident” başlıqlı məqalənin ictimai aktuallığını nəzərə alaraq, ixtisarla oxucularımıza təqdim edirik.**



### İlham Əliyevin Qarabağın dirçəlişi planı parlaq gələcək vəd edir

İkinci Qarabağ savaşını “Dəmir yumruq”la qazanan Ali Baş Komandan İlham Əliyev “Dəmir iradə” ilə işğaldan azad edilən şəhər və rayonları, qəsəbə və kəndləri bərpa edir, yenidən qurur və çox böyük layihələr reallaşdırır. Yeni açılışlar, təməlqoymalar isə işğaldan azad edilmiş torpaqlarımızda başlanan tikinti-quruculuq, yenidənqurma işlərinin, yeni Qarabağın inkişaf planının tərkib hissəsidir.

### Sözünə, vədinə sadiq Lider

Əgər diqqət etsək, görərik ki, Azərbaycan Prezidenti cəmi bir il ərzində Qarabağın dirçəlişi yolunda bir çox dövlətin 10 il ərzində görə bilmədiyi işləri reallaşdırıb. Təkcə bir ildə Qarabağın yol-nəqliyyat infrastrukturu, enerji sektoru üzrə həyata keçirilən layihələri göstərmək yetərlidir.

Cəmi bir il öncə Vətən müharibəsi başlayanda İlham Əliyev xarici KİV-ə verdiyi müsahibələrdə qətiyyətlə, inamla deyirdi ki, işğaldan azad edilmiş torpaqlar yenidən qurulacaq, evlər, inzibati binalar, məktəblər tikiləcək. Yeni-yeni infrastrukturlar yaradılacaq. Beləliklə, ölkəmiz üçün yeni bir dövr başlanacaq.

İlham Əliyev əməli ilə bir daha göstərir ki, bu sözləri heç də söz xatirinə söyləməyib. Prezident kimi Azərbaycanı tarixinin ən qüdrətli dövlətinə çevirən İlham Əliyev bu gün başladığı işlərlə Qarabağın əvvəlki şöhrətini özünə qaytaracağını dünyaya nümayiş etdirir.

Həyata keçirilən bütün proseslər təsdiq edir ki, yaxın illərdə Qarabağ yenidən cənnətməkana çevriləcək. İlham Əliyevin dediyi kimi, ölkəmizin gələcək inkişafı çox uğurlu olacaq. Bugünədək Azərbaycan Prezidentinin bəyan etdiyi bütün hədəflərə nail olunması bunu təsdiqləyir.

### Azərbaycan tam başqa bir mərhələnin astanasındadır

İqtisadi qüdrəti möhkəm olan dövlət bütün sahələrdə uğur qazanmağa qadirdir. Vətən müharibəsindən sonra qalib ölkə kimi qarşısında yeni perspektivlər açılan Azərbaycan indi tam başqa bir mərhələnin astanasındadır. Qarşıya qoyulan bir nömrəli prioritet məsələ işğaldan azad olunmuş ərazilərdə bərpa və quruculuq işləri aparmaq, yeni infrastrukturların yaradılmasına, sərmayələrin cəlb edilməsinə nail olmaqdır.

Prezident İlham Əliyevin oktyabrın 3-4-də Bərdəyə, Tərtərə, Cəbrayıla səfərləri çərçivəsində açılışını etdiyi, təməlini qoyduğu sosial-iqtisadi obyektlər və digər infrastrukturlar Qarabağın dirçəlişi planının sürətli icrasının bariz nümunəsidir.

Dövlət başçısı 3 rayona səfəri zamanı bir çox müəssisənin təməlqoyma mərasimlərində, açılışında iştirak etdi, qarşıda duran vəzifələri müəyyənləşdirdi və həm də Ermənistanı bir daha sülh müqaviləsini bağlamağa çağırdı.

Qalib Komandan kimi Bərdəyə, Tərtərə və Cəbrayıla səfəri çərçivəsində İlham Əliyev işğaldan azad edilmiş torpaqlarımızda Azərbaycan bayrağını ucaltdı.

Bu səfər çərçivəsində reallaşan bütün proseslər bir daha təsdiq etdi ki, İlham Əliyev işğaldan azad edilən torpaqlarımızdakı tikinti-quruculuq işlərinə ciddi nəzarət edir və mütəmadi olaraq verdiyi tapşırıqların icrası ilə maraqlanır, lazımi tövsiyələrini verir.

### Hər zaman xalqın yanında

Bu səfər həm də bir daha təsdiq etdi ki, İlham Əliyev hər zaman xalqın yanındadır, əhalinin sosial problemlərinin həlli istiqamətində çox mühüm işlər həyata keçirir. Regionlara səfəri zamanı vətəndaşlarla görüşərək səmimi söhbət etməsi, onların problemlərini dinləyib, hətta bəzilərinin yerindəcə həll edilməsi ilə bağlı tapşırıqlarını verməsi bunun bariz təcəssümüdür.

Dövlət başçısının Vətən müharibəsi zamanı Ermənistan silahlı qüvvələrinin “Smerç” raketləri ilə hücumu nəticəsində Tərtər şəhərinin sakini Sahib İsmayılovun dağılmış evinə baxması və əvəzində inşa edilən yeni evdə yaradılan şəraitlə tanış olması, sahibi ilə səmimi söhbəti bunun real təsdiqidir.

İşğaldan azad edilən Cəbrayıl rayonunun sosial-iqtisadi inkişafı istiqamətində atılan addımlar da təqdirəlayiqdir. Təkcə bir səfər çərçivəsində dövlət başçısı çox mühüm iqtisadi obyektlərin təməlini qoydu. “KamAZ” ASC ilə “Gəncə Avtomobil Zavodu” İstehsalat Birliyinin birgə servis mərkəzi, Şərqi Zəngəzur iqtisadi rayonunda yaradılacaq “Araz Vadisi İqtisadi Zonası” Sənaye Parkı, “Cəbrayıl” yarımstansiyası, Cəbrayıl Rayon Mərkəzi Xəstəxanası, akademik Mehdi Mehdizadə adına tam orta məktəbin tikintisi və Cəbrayıl şəhərində ilk çoxmənzilli yaşayış məhəlləsinin, Memorial Kompleksin və şəhərin bərpasının təməl daşının qoyulması, ilk növbədə, bölgənin potensialının ölkə iqtisadiyyatına reinteqrasiyasına, yerli istehsalın inkişafına böyük təkan verəcək, məşğulluq səviyyəsinin yüksəlməsinə əlavə imkanlar yaradacaq.

Cəbrayıl rayonunda işğaldan əvvəl 52 min sakin yaşayırdısa, indi onların sayı 82 minə çatıb. Burada ən vacib amillərdən biri də şəhərdə yaşayacaq insanlara veriləcək suyun yeraltı mənbələrdən çəkilməsidir. Doğma şəhərlərinə uzun illərdən sonra yenidən ayaq basan rayon sakinlərinə rahat yaşamaları üçün hər cür şərait yaradılır.

Cəbrayıl şəhərində ilk çoxmənzilli yaşayış məhəlləsi 10,5 hektar ərazini əhatə edəcək və məhəllə mərhələli şəkildə tikilib istifadəyə veriləcək. İlk mərhələdə 5 bina tikiləcək və bu binalara 200-ə yaxın ailə, yəni 654 sakin köçürüləcək. Məhəllədə 4, 5 və 6 mərtəbəli yaşayış, o cümlədən digər təyinatlı binalar olacaq. Bu məhəllədə və ümumiyyətlə, şəhərin mərkəzində tikiləcək binaların fasad və eyvanlarına tarixilikləri qorunmaqla, müasir görkəm veriləcək.

### İlham Əliyevdən sülh çağırışı, revanşistlərə isə ciddi xəbərdarlıq

Prezident Suqovuşanda və Cəbrayıl ictimaiyyətinin nümayəndələri ilə görüşdəki çıxışında bir daha yeni reallıqlardan danışdı və məğlub Ermənistanı sülh müqaviləsi bağlamağa çağırdı.

Regionda yeni dövrün başlandığını deyən İlham Əliyev bildirdi ki, bu dövrü müsbət istiqamətə yönləndirmək lazımdır. Hər halda Ermənistanla Azərbaycan arasındakı bu ədavət əbədi olmamalıdır. Yəni bütün bu dağıntılara, barbarlığa, vəhşiliyə baxmayaraq, gələcəyə baxılmalıdır. Azərbaycanla Ermənistan arasında sərhədlərin delimitasiyası, sülh müqaviləsi, bir-birinin ərazi bütövlüyünün tanınması istiqamətində, ondan sonra iqtisadi əlaqələrin bərpası, nəqliyyat kommunikasiyalarının açılması, bütün bunlar gündəlikdə olan məsələlərdir.

Amma hələ ki, Ermənistan sülh müqaviləsi bağlamaqdan boyun qaçırır. Azərbaycan isə bu prosesə tam hazırdır. İlham Əliyev hesab edir ki, bu məsələdə vasitəçiyə də ehtiyac yoxdur, iki ölkə məsələni həll edə bilər və bu da bölgədə uzunmüddətli sülhü təmin edər.

Dövlət başçısı, həmçinin, Ermənistandakı revanşistlərə də sərt xəbərdarlığını ünvanladı: “Ermənistanda revanşist hisslərlə yaşayanlara müraciət edirəm - ağlınızı yığın başınıza. Dəmir yumruq buradadır, heç yerə getməyib, yerindədir. Bizi əsəbiləşdirməyin, özünüzü yaxşı aparın. Özünüzü yaxşı aparsanız, onda rahat yaşaya bilərsiniz. Yox, əgər bir daha bizə qarşı hər hansı bir təxribat, bəyanat, hərəkət olarsa, heç kimə baxmadan başınızı əzəcəyik. Heç kim də sizi müdafiə edə bilməz”.

# DAXİLİ QOŞUNLARIN HƏRBİ ŞURASININ NÖVBƏTİ İCLASI KEÇİRİLİB

***Daxili işlər nazirinin müavini - daxili qoşunların komandanı Daxili Qoşunların qoşun təsərrüfatının qış mövsümünə hazırlığı, şəxsi heyətin maddi-texniki təminatı və sosial-məişət şəraitinin yaxşılaşdırılması üzrə görülmüş işləri qənaətbəxş qiymətləndirib.***



Oktyabrın 13-də Daxili Qoşunların Baş İdarəsində Hərbi Şuranın Daxili Qoşunların qoşun təsərrüfatının qış mövsümünə hazırlığının vəziyyətinə həsr olunmuş növbəti iclası keçirilib.

İclası giriş sözü ilə açan Hərbi Şuranın sədri, daxili işlər nazirinin müavini - daxili qoşunların komandanı general-leytenant Şahin Məmmədov bildirib ki, Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin rəhbərliyi ilə son illərdə hərbi quruculuq sahəsində aparılan islahatlar, Azərbaycan ordusunun və qanunla müəyyən edilmiş digər silahlı birləşmələrin maddi-texniki bazasının möhkəmləndirilməsi istiqamətində görülən işlər dövlətçilik siyasətimizin prioritetlərindəndir. İndiyədək istər paytaxtda, istərsə də bölgələrdə yerləşən hərbi hissələr müasir səviyyədə yenidən qurulub, yeni hərbi hissə və şəhərciklər salınıb, maddi-texniki baza daha da müasirləşdirilib. Bu isə ordu quruculuğu sahəsinə dövlət səviyyəsində göstərilən diqqətin təzahürü olmaqla yanaşı, həm də hərbçilərin xidmət şəraitinin yaxşılaşdırılmasında və onların döyüş qabiliyyətinin artırılmasında müstəsna əhəmiyyət daşıyır.

Xüsusilə, Vətən müharibəsi zamanı Silahlı Qüvvələrimizin maddi-texniki bazasının möhkəmləndirilməsi, silahlanmaya yeni, müasir silah növlərinin, hərbi texnikanın daxil edilməsi istiqamətində atılmış addımlar müdrik və uzaqgörən siyasətin nəticəsi idi. İndi Silahlı Qüvvələrimiz beynəlxalq hərbi tədqiqat mərkəzlərinin hesabatlarında dünyanın ən güclü ordularından biri kimi qiymətləndirilir.

Daha sonra daxili qoşunlar komandanının müavini - maddi-texniki təminat idarəsinin rəisi general-mayor Fəxrəddin Səmədov Daxili Qoşunların qoşun təsərrüfatının qış mövsümünə hazırlığının vəziyyəti haqqında məruzə ilə çıxış edib.

Bildirilib ki, qoşun təsərrüfatının qış mövsümünə hazırlığı şəxsi heyətin maddi-məişət və mədəni tələbatlarının ödənilməsində, kazarma-yaşayış, texniki və tibbi təyinatlı obyektlərin, silah, texnika və avadanlıqların hazırlığında, maddi-texniki vasitələrin qorunub saxlanılmasında, ümumilikdə, qoşunların hərtərəfli təminatında vacib məsələlərdəndir. Bütün bunlar hissə və bölmələrin döyüş hazırlığının fasiləsiz təmin edilməsinə və xidməti-döyüş tapşırıqlarının yerinə yetirilməsinə əsas verir.

Qeyd edilib ki, qışa hazırlıq işlərinin planlı şəkildə aparılması məqsədilə, daxili işlər nazirinin müavini - daxili qoşunların komandanının müvafiq əmrilə “2021-ci ildə Daxili Qoşunların Baş İdarəsində, Ali Hərbi Məktəbində, Təlim Mərkəzində və hərbi hissələrində qoşun təsərrüfatının qış mövsümünə hazırlığı üzrə tədbirlər planı” təsdiq edilib. Tədbirlər planının icrası ilə bağlı Ali Hərbi Məktəbdə və hərbi hissələrdə yaradılmış komissiyalar tərəfindən yaşayış və qeyri-yaşayış binalarına, hərbi təsərrüfat obyektlərinə, istilik, elektrik, qaz, su və kanalizasiya sistemlərinə texniki baxışlar keçirilib, görüləcək işlərin həcmi müəyyən edilib, müvafiq aktlar tərtib edilərək işlərin yerinə yetirilməsi məqsədilə ehtiyac duyulan avadanlıqlar və materialların alınması üçün zəruri tədarük və təchizat həyata keçirilib.

Qış mövsümünə keçidlə əlaqədar qoşunların şəxsi heyəti mövsümi geyim əmlakları ilə təmin olunub, ərzaq məhsullarının tədarük edilməsi, normalara uyğun şəxsi heyətə çatdırılması, xörəklərin keyfiyyəti, əsgər yeməkxanalarının və iaşə obyektlərinin sanitar vəziyyəti nəzarətdə saxlanılıb, xidməti heyvanlar arasında baytar-profilaktiki və müalicə tədbirləri həyata keçirilib.




Həmçinin, qoşunların döyüş hazırlığının yüksək səviyyədə saxlanılması məqsədilə nəqliyyat vasitələrinin qış mövsümündə fasiləsiz istifadəsini təmin etmək üçün müvafiq tədbirlər həyata keçirilərək, park təsərrüfatlarının hazırlığı yoxlanılıb. Şəxsi heyətlə pis hava şəraitində nəqliyyat vasitələrinin idarə olunması, mövsümi texniki xidmətin keçirilməsi və qış dövründə nəqliyyat vasitələrinin istismarı qaydaları mövzularında məşğələlər keçirilib.

Bundan əlavə, soyuq hava şəraitində şəxsi heyətin sağlamlığının qorunması ilə əlaqədar qabaqlayıcı profilaktik tədbirlərin həyata keçirilməsi barədə də məruzə edilib.

General-mayor F.Səmədov çıxışının sonunda əminliklə bildirib ki, Daxili Qoşunların Baş İdarəsinin Maddi-texniki təminat İdarəsi və hərbi hissə komandirlərinin maddi-texniki təminat üzrə müavinləri 2021-2022-ci illərin qış mövsümündə şəxsi heyətin sağlamlığının qorunması, onların məişət şəraiti və təminatı, eləcə də texnikanın və silahların istismarının təşkil olunması üzrə qış mövsümü ilə bağlı üzərilərinə düşən vəzifələri tam həcmdə həyata keçirəcəklər.

Hərbi Şuranın iclasında mövcud vəziyyət, fəaliyyətdə qazanılmış nailiyyətlər, eləcə də yol verilmiş nöqsan və çatışmazlıqların yaranma səbəbləri, onların aradan qaldırılması istiqamətində görülən işlər barədə bir sıra hərbi hissə komandirlərinin hesabat-çıxışları dinlənilib.

İclasa yekun vuran general-leytenant Ş.Məmmədov qış mövsümünə hazırlıqla əlaqədar şəxsi heyətin maddi-texniki və tibbi təminatı, sosial-məişət şəraitinin yaxşılaşdırılması və texnikanın istismarı üzrə tədbirlər planında nəzərdə tutulmuş işlərin tam olaraq başa çatdırılması üçün vəzifəli şəxslərə tapşırıqlarını verib.

Əminliklə bildirilib ki, Daxili Qoşunların şəxsi heyəti dövlət qayğısına cavab olaraq, yaradılan şəraitdən düzgün istifadə edəcək, təhkim olunan əmlakın qorunub saxlanılmasını təmin edəcək, yüksək döyüş hazırlığını saxlamaqla, qış mövsümünü uğurla başa vuracaqdır.

**Mətbuat xidməti**

2_Layout 1 14.10.2021 10:33 Page 1



# QƏHRƏMANLARIMIZI ANIRIQ

## Şəhid hərbi qulluqçularımızın il mərasimi keçirilib



Torpaqlarımızın işğaldan azad edilməsi uğrunda gedən Vətən müharibəsində qəhrəmancasına döyüşərək şəhidlik zirvəsinə ucalan Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının hərbi qulluqçularının il mərasimi keçirilib.

Anım günləri ilə əlaqədar keçirilən tədbirlər Cəlilabad, Bərdə, Biləsuvar, Beyləqan, İsmayıllı, Zərdab, Gədəbəy, Bakı şəhərinin Xəzər, Qaradağ və Sabunçu rayonlarını əhatə edib.

Mərasimlərə Daxili İşlər Nazirliyinin rəhbər şəxsləri, Baş İdarə rəisləri, Daxili Qoşunların rəhbər heyəti, eləcə də rayon polis idarələrinin əməkdaşları, şəhidlərin ailə üzvləri, döyüş yoldaşları və rayon ictimaiyyəti qatılıblar.

İştirakçılar şəhid məzarlarını ziyarət edib, gül-çiçək dəstələri düzüblər. Azərbaycanın ərazi bütövlüyü uğrunda canından keçmiş bütün şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Mərasimlərdə çıxış edənlər ordumuzun şanlı qələbəsindən, şəhidlərimizin keçdikləri döyüş yolundan danışıb, göstərdikləri şücaət və qəhrəmanlıqlardan söz açıblar. Onların igidlik və qəhrəmanlıqlarının gənc nəsillər üçün daim örnək olacağı vurğulanıb, hər bir şəhid ailəsinin, qazinin ölkə rəhbərliyinin diqqət və qayğısı ilə əhatə edildiyi diqqətə çatdırılıb. Şəhidlərimizin xalqımızın yaddaşında əbədi olaraq yaşayacaqları və unudulmayacaqları xüsusilə qeyd edilib.

Şəhid ailələri göstərilən diqqət və qayğıya görə ölkə rəhbərliyinə minnətdarlıqlarını bildiriblər.

Tədbirlər qarşıdakı günlərdə də davam etdiriləcək.

**DİN-in Mətbuat xidməti**









## DİN DAXİLİ QOŞUNLARININ ŞƏHİD OLMUŞ HƏRBİ QULLUQÇUSUNUN İL MƏRASİMİ KEÇİRİLİB

Torpaqlarımızın işğaldan azad edilməsi uğrunda gedən Vətən müharibəsində qəhrəmancasına döyüşərək şəhidlik zirvəsinə ucalmış Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının hərbi qulluqçusu baş çavuş Abdullayev Tural Şakir oğlunun il mərasimi keçirilib.



Mərasimdə daxili işlər nazirinin müavini, polis general-leytenantı İsmət Əliyev, daxili qoşunlar komandanının müavini-şəxsi heyət üzrə idarənin rəisi general-mayor Vidadi Əliyev, Bakı şəhər BPİ-nin rəisi, polis general-mayoru Əkbər İsmayılov, Xəzər və Sabunçu rayon icra hakimiyyətlərinin başçıları, şəhidin ailə üzvləri, döyüş yoldaşları və rayon ictimaiyyəti iştirak ediblər.

İştirakçılar əvvəlcə şəhid Tural Abdullayevin Xəzər rayonunun Binə qəsəbəsindəki Şəhidlər xiyabanındakı məzarını ziyarət edib, önünə çiçək dəstələri düzüblər. Azərbaycanın ərazi bütövlüyü uğrunda canından keçmiş bütün şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Mərasimdə çıxış edən nazir müavini İ.Əliyev və digərləri T.Abdullayevin şərəfli, hər bir gənc üçün örnək olan ömür yolundan, Daxili Qoşunlardakı nümunəvi hərbi xidmətindən, eləcə də Vətən müharibəsindəki hərbi əməliyyatlar zamanı göstərdiyi qəhrəmanlıq, fədakarlıq, mərdlik və igidlik nümunələrindən söhbət açıb, ölümündən sonra Azərbaycan Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyev tərəfindən xidmətlərinin yüksək qiymətləndirildiyini, hər bir şəhid ailəsinin, qazinin ölkə rəhbərliyinin diqqət və qayğısı ilə əhatələndiyini tədbir iştirakçılarının nəzərinə çatdırıblar.

Şəhidin atası Şakir Abdullayev Vətənə xidmətin hər bir övladın borcu olduğunu deyərək, şəhid oğlu ilə fəxr etdiyini, şəhid ailələrinə göstərilən diqqət və qayğıya görə ölkə rəhbərliyinə minnətdarlığını bildirib.

Qeyd edək ki, Azərbaycan Respublikası Prezidentinin müvafiq sərəncamları ilə baş çavuş Abdullayev Tural Şakir oğlu (ölümündən sonra) "Qarabağ" ordeni, "Vətən uğrunda" və "Kəlbəcərin azad olunmasına görə" medalları ilə təltif edilib.

**DİN-in Mətbuat xidməti**

## DAXİLİ QOŞUNLARIN ALİ HƏRBİ MƏKTƏBİNDƏ KURSANTLARIN ANDİÇMƏ MƏRASİMİ KEÇİRİLİB



2021-ci ildə Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının Ali Hərbi Məktəbinə qəbul olunan kursantların oktyabrın 2-də təntənəli andiçmə mərasimi keçirilib.

Tədbir Ali Hərbi Məktəbin Döyüş Bayrağının sıra meydanına gətirilməsi ilə başlayıb. Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin və respublikamızın ərazi bütövlüyü uğrunda şəhid olmuş hərbi qulluqçularımızın əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib. Nümunəvi göstərici hərbi orkestrin müşayiəti ilə Dövlət Himni ifa edilib.





Ali Hərbi Məktəbə yeni qəbul olunmuş kursantlar hərbi and içərək, Vətənimiz Azərbaycana və onun xalqına sadiq olacaqları, dövlətimizin mənafeyini, onun suverenliyini, ərazi bütövlüyünü və müstəqilliyini şərəflə qoruyacaqları, bundan ötrü qanlarını və canlarını əsirgəməyəcəkləri barədə söz veriblər.

Kursantlar adından çıxış edən Əli Mehtiyev zabit adına hər zaman layiq olmağa çalışacaqlarını, hərb işini vicdanla öyrənəcəklərini, hərbi ənənələri şərəflə davam və inkişaf etdirəcəklərini, üzərilərinə düşən şərəfli və məsul vəzifələri layiqincə yerinə yetirəcəklərini, onlara olan etimadı hər zaman doğruldacaqlarını ifadə edib.

Andiçmə mərasimində iştirak edən daxili qoşunlar komandanının müavini-şəxsi heyət üzrə idarənin rəisi general-mayor Vidadi Əliyev daxili işlər nazirinin müavini-daxili qoşunların komandanı general-leytenant Şahin Məmmədovun andiçmə münasibətilə təbrik və tövsiyələrini çatdırıb. Təbrikdə qeyd olunub ki, Daxili Qoşunların bütün şəxsi heyəti kimi, bu gün sıralarımıza daxil olan kursantlar da Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyev tərəfindən qarşıya qoyulan hər bir tapşırığı layiqincə yerinə yetirəcək, Daxili Qoşunların sıralarının möhkəmlənməsi üçün səy göstərəcək, dövlət və dövlətçiliyimizin daha da gücləndirilməsi naminə öz fədakar xidmətlərini əsirgəməyəcəklər. Əlavə olaraq, general-mayor Vidadi Əliyev çıxışında bütün kursantlara bu müqəddəs və şərəfli yolda daim inamla irəliləyərək, Vətənin müsəlləh əsgəri kimi Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin verdiyi bütün əmr və göstərişləri layiqincə yerinə yetirməyi, göstərilən etimadı hər zaman doğrultmaq üçün əllərindən gələni əsirgəməməyi arzulayıb.

Tədbir şəxsi heyətin təntənəli keçidi ilə başa çatıb.

**Mətbuat xidməti**

## HƏRBİ XİDMƏT BORCUNU VİCDANLA YERİNƏ YETİRƏN ƏSGƏR

Daxili Qoşunların hərbi hissələrində öz hərbi intizamı, təlimdə çalışqanlığı ilə fərqlənən, komandirləri tərəfindən müsbət xarakterizə olunan əsgərlərdən biri də qoşunların 25031 saylı hərbi hissəsinin avtomobil bölüyündə xidmət edir.

Əsgər Murad Seyfullayev bölüyün Daxili Qoşunların Baş İdarəsinin minik avtomobilləri taqımında sürücüdür. 2021-ci ilin aprel ayından müddətli həqiqi hərbi xidmətdədir. O, 2003-cü il aprelin 2-də Masallı rayonunun Digah kəndində anadan olub. Digah kəndindəki Sakit Tağıyev adına tam orta məktəbin məzunudur. Ailədə və məktəbdə vətənpərvər ruhda tərbiyə alıb. Məktəbli olarkən müxtəlif idman növləri ilə məşğul olub, yarışlarda iştirak edərək uğurlu nəticələr göstərib. Xüsusən cüdo, futbol və



şahmata böyük marağı var.

Muradın yaşca böyük qardaşı Araz Seyfullayev Müdafiə Nazirliyinin "N" saylı hərbi hissəsində xüsusi təyinatlı kimi xidmət edib. 44 günlük Vətən müharibəsində erməni işğalçılarına qarşı vuruşan Araz şəhidlik zirvəsinə ucalıb. Şəhid ölümündən sonra dövlətimizin ali mükafatları ilə təltif olunub. Qardaşının yoxluğuna dözmək Murad üçün nə qədər ağır olsa da, onun torpaqlarımızın düşmən tapdağından azad edilməsi naminə göstərdiyi şücaət və fədakarlığın qəlbində qürur hissi yaratdığını vurğuladı.

Bölük komandirinin vəzifəsini müvəqqəti icra edən leytenant Orxan Mamedov əsgər M.Seyfullayevin hərbi xidmət borcuna vicdanla yanaşdığını, verilən tapşırıqları məsuliyyətlə yerinə yetirdiyini, təlim və məşğələlərdə əzmkarlıq göstərdiyini, hərbi kollektivdə hörmət qazandığını bildirdi.

Murad hərbi xidmətdən sonra polis olmağı və xalqımızın asayişi keşiyində dayanmağı arzulayır.

**25031 saylı hərbi hissənin ştatdankənar müxbir postu**

3_Layout 1 14.10.2021 10:49 Page 1



*Şəhidlərimiz*

# ŞƏHİDLƏRİMİZİN İNTİQAMINI ALMAQ ONUN AMALI İDİ...

Xalqımızın şanlı qələbəsilə nəticələnən Vətən müharibəsi zamanı şəhidlik zirvəsinə ucalmış və qəhrəmanlığı ilə qürur duyduğumuz igid silahdaşlarımızdan biri də baş çavuş Hüseynov Məhəmməd Alik oğludur.

Əslən Cəbrayıl rayonunun Harovlu kəndindən olan baş çavuş Məhəmməd Hüseynov 1993-cü il oktyabrın 28-də Beyləqan rayonunun Bahar qəsəbəsində anadan olub. Həmin gün Hüseynovlar ailəsinin sevincinin həddi-hüdudu yox idi. Üç qız uşağından (Nuranə, Asimə və Zərqələm) sonra ailənin yenidən biri qız, digəri oğlan olmaqla, Sona və Məhəmməd adlarını verdikləri əkiz övladı dünyaya göz açmışdı. Cəsur silahdaşımızın atası Alik Hüseynovun və anası Tahirə İmrəliyevanın böyüdüb tərbiyə etdikləri beş övladdan biri olan Məhəmməd, həmçinin, dörd bacının yeganə qardaşı, vüqarıydı. Bəli, 44 gün davam edən Vətən müharibəsi başladığı günədək bu, belə idi. Lakin indi Məhəmməd təkcə Hüseynovlar ailəsinin yox, bütün el-obasının, bütövlükdə isə otuz ilə yaxın düşmən tapdağında olan torpaqlarımızı azad etmiş qalib xalqımızın böyük iftixar hissi duyduğu igid oğullarımızdan biridir.

M.Hüseynov orta təhsilini Bahar qəsəbəsindəki Sosialist Əməyi Qəhrəmanı, ana babası Sərdar İmrəliyevin adını daşıyan tam orta məktəbdə alıb.

Müddətli həqiqi hərbi xidmətini 2011-ci ilin oktyabr ayından 2013-cü ilin aprel ayınadək Daxili Qoşunların 67987 saylı hərbi hissəsinin xüsusi təyinatlı dəstəsində keçib. Müddətli həqiqi hərbi xidmətini başa vurduqdan sonra qoşunların 99713 saylı hərbi hissəsinin "Şahin" şərti adını daşıyan xüsusi təyinatlı dəstəsində müddətdən artıq həqiqi hərbi xidmətə keçirilib. Xüsusi təyinatlı dəstənin əməliyyat qrupunda atıcı-qumbaraatan vəzifəsində xidmət edib. Vəzifə borclarının icrasına məsuliyyətlə yanaşan hərbi qulluqçumuz yüksək döyüş hazırlığı, hərbi intizamı və nümunəvi xidmətilə hər zaman fərqlənib, komandir heyətinin etimadını doğruldub. Məhz buna görə də hərbi hissənin və dəstənin komandanlığı tərəfindən dəfələrlə mükafatlandırılıb.

2019-cu ilin sentyabr ayından 2020-ci ilin fevral ayınadək baş çavuş M.Hüseynov qardaş Türkiyə Respublikası Jandarm Baş Komandanlığının Jandarm Komando Məktəbləri və Təlim Mərkəzi Komandanlığında "Gizir komando təməl kursu"nu müvəffəqiyyətlə bitirib və ona müvafiq sertifikat verilib. Bundan əlavə, Məhəmməd əsl xüsusi təyinatlıya xas qətiyyəti və əzmkarlığı ilə qazandığı zoğalı bereti də böyük qürur hissi ilə daşıyıb.



İkinci Qarabağ müharibəsi zamanı Vətənimizin hər bir qeyrətli övladı kimi döyüşlərə qatılan baş çavuş M.Hüseynov Kəlbəcər və Cəbrayıl rayonlarının azad edilməsi uğrunda fədakarcasına vuruşub.

99713 saylı hərbi hissənin "Şahin" şərti adını daşıyan xüsusi təyinatlı dəstəsində qrup komandiri, Vətən müharibəsi iştirakçısı kapitan Ceyhun Əsgərov (Füzuli rayonu ərazisində gedən döyüşdə yaralanıb) vaxtilə birgə xidmət etdiyi cəsur silahdaşımızın nümunəvi xidmətini bu gün də fəxrlə qeyd edir: "44 gün davam edən Vətən müharibəsində qrupumuzun xüsusi təyinatlıları şücaət göstərərək işğalçı ordunun xeyli sayda canlı qüvvəsini və hərbi texnikasını məhv etməklə, düşmənə sarsıdıcı zərbələr endirmişlər. Döyüş meydanında dəstəmizin adına uyğun, əzmlə düşmən üzərinə şığıyan igid şahinlərimizdən biri də baş çavuş M.Hüseynov olub.

Məhəmmədin özünəməxsus müsbət xarakterik xüsusiyyətləri var idi. Olduqca mərd, eyni zamanda, mehriban, dostluğa və yoldaşlığa xüsusi önəm verən bir insan olduğu üçün döyüşçü yoldaşlarının dərin hörmət və etibarını qazanmışdı. Müharibənin ilk günündən Kəlbəcər istiqamətindən başlayaraq döyüşlərə qatılan və qorxu hissinin nə olduğunu bilməyən cəsur silahdaşımız son anadək tərəddüd etmədən ancaq irəliyə, düşmənin üzərinə gedib".

**7 oktyabr 2020-ci il...** Cəbrayıl istiqamətində gedən döyüş Məhəmmədin son döyüşü oldu. Bu barədə məlumat verən "Şahin" xüsusi təyinatlı dəstəsində atıcı, Vətən müharibəsi iştirakçısı baş çavuş Pərvin Abbaslı (Cəbrayıl rayonu ərazisində gedən döyüşdə yaralanıb) Məhəmmədlə eyni qrupun tərkibində hərbi əməliyyatlarda iştirak etdiyini bildirərək, onun göstərdiyi qəhrəmanlıq nümunələrini hər zaman böyük qürur hissi ilə xatırlayacağını vurğuladı: "İlk döyüşümüz 2020-ci il sentyabrın 27-dən etibarən Kəlbəcər istiqamətində, Murovdağ silsiləsində yerləşən bir neçə strateji əhəmiyyətli yüksəkliyin azad edilməsilə başladı. Dəstəmiz ayrı-ayrı qruplara bölünmüşdü. Bizim qrup kapitan Ceyhun Əsgərovun rəhbərliyi altında düşmənin "Canavar" postu deyilən və strateji əhəmiyyətli mövqeyi istiqamətində hərəkətə başladı. Qarşımıza bu postu almaq tapşırığı qoyulmuşdu. Onu da qeyd edim ki, müvafiq döyüş tapşırığına uyğun olaraq qrupumuz Müdafiə Nazirliyinin "N" saylı hərbi hissəsinin xüsusi təyinatlıları ilə birgə bu hərbi əməliyyatlarda iştirak edirdi. Tərkibində baş çavuş M.Hüseynovun da olduğu qrupumuzun cəsur xüsusi təyinatlıları: gizirlər Cabir Əliyev, Bəhruz İsgəndərov, baş çavuş Surət Babayev, çavuşlar Nurlan Məlikov, Samir Davidov və Orxan Babayev (17072 saylı hərbi hissənin xüsusi təyinatlısı) gözlərini belə qırpmadan irəliləyərək, düşməni məhv edib postu aldılar. Qorxuya düşən və vuruşmağa cürəti çatmayan ermənilər xeyli sayda silah-sursatı postda atıb qaçmışdılar. Yüksəkliyi ələ keçirəndən sonra beş gün onun mühafizəsində dayandıq. Bundan sonra tutduğumuz mövqeləri digər qruplara təhvil verib, oktyabr ayının 2-dən Cəbrayıl istiqamətində döyüşlərə qatıldıq. Onu da qeyd edim ki, Məhəmməd atıcı-qumbaraatan, mən isə onun köməkçisi kimi bu döyüşlərdə iştirak edirdim. Bu rayon uğrunda döyüşə başladığımız ilk günlərdən bir neçə yüksəkliyi və yaşayış məntəqəsini düşməndən azad etməyə müvəffəq olduq. Lakin acı məğlubiyyətlə barışmaq istəməyən və döyüş meydanında vuruşmağa cəsarəti çatmayan düşmən olduğumuz mövqeləri uzaq məsafədən aramsız artilleriya atəşinə məruz qoyurdu. Oktyabrın 7-də rayondakı "Dostluq bulağı" deyilən ərazinin ətrafında baş vermiş döyüşlər zamanı yaxınlıqlarında düşmənin atdığı minaatan mərmisinin partlaması nəticəsində aldıqları çoxsaylı qəlpə yarasından baş çavuş M.Hüseynov və bizim qrupla birgə vuruşan Müdafiə Nazirliyinin "N" saylı hərbi hissəsinin cəsur xüsusi təyinatlıları: kapitan Musibov Veysəl Yadulla oğlu, baş leytenant Bədəlov Valeh Vahid oğlu qəhrəmancasına şəhid oldular. Bununla yanaşı, qrupumuzdan iki nəfər - Müdafiə Nazirliyinin xüsusi təyinatlısı kapitan Vasif Dilavərzadə və dəstəmizin hərbi qulluqçusu çavuş Surət Babayev ağır yaralandılar".



Baş çavuş M.Hüseynov 2020-ci il oktyabrın 20-də Beyləqan rayonunun Bahar qəsəbə qəbiristanlığında dəfn olunub. Jalə xanımla ailə həyatı qurmuş şəhid hərbi qulluqçumuzun Hüseyn adlı oğul yadigarı qalıb.

Azərbaycan Respublikası Prezidentinin 15 dekabr 2020-ci il tarixli, 22 dekabr 2020-ci il tarixli və 29 dekabr 2020-ci il tarixli müvafiq sərəncamları ilə baş çavuş Hüseynov Məhəmməd Alik oğlu (ölümündən sonra) "Vətən uğrunda", "Cəbrayılın azad olunmasına görə" və "Kəlbəcərin azad olunmasına görə" medalları ilə təltif edilib.

"ATV" televiziya kanalında və "YouTube" internet portalı vasitəsilə yayımlanan müxtəlif saytlar tərəfindən hazırlanmış süjetlərdə cəsur silahdaşımızın gənc nəslə nümunə olan həyat və hərbi xidmət yolu barədə məlumatlar izləyicilərə təqdim edilib. Bundan əlavə, "Aran" Uşaqların Sağlam Gələcəyi İctimai Birliyinin sədri İbrahim Hüseynovun tərtibçisi olduğu, "Radius" mətbəəsində işıq üzü görən "Qələbə şəhidləri", Ramin Hikmətin müəllifi olduğu "Beyləqan şəhidləri", İsmayıl İmanzadənin və Tariyel Abbaslının birgə müəllifi olduqları "Zəfər yolunda" adlı kitablarda, həmçinin, "Xudafərin" qəzetinin 20 mart 2021-ci il tarixli sayında Şakir Əlifoğlunun müəllifi olduğu "Qazi şəhid kimi əmisinin yanına qayıtdı" başlıqlı məqalədə şəhid hərbi qulluqçumuzun həyat və döyüş yolu işıqlandırılıb.

"Məhəmmədi hələ körpəlikdən vətənpərvər, dövlətimizə sadiq vətəndaş kimi böyüdüb tərbiyə etmişəm" - deyən Alik dayı Birinci Qarabağ müharibəsi veteranıdır. Xocavənd və Füzuli rayonları uğrunda gedən döyüş əməliyyatlarında iştirak edib. O, bir ata kimi övladının timsalında Vətənimizin şəhidlik zirvəsinə yüksəlmiş bütün qeyrətli oğulları ilə qürur duyduğunu deyir.

Onu da qeyd edək ki, Məhəmmədin əmisi Hüseynov Hüseyn Məmməd oğlu 1996-cı il mayın 5-də Füzuli rayonunun Qazaxlar kəndi istiqamətində xidməti-vəzifə borcunu yerinə yetirərkən düşmənin basdırdığı minanın partlaması nəticəsində şəhid olub. Məhəmməd öz övladına şəhid əmisinin adını verib. Cəsur silahdaşımızın bacısı Nuranə xanımın bildirdiyinə görə, əmisi də daxil olmaqla, bütün şəhidlərimizin intiqamını mənfur düşməndən almaq hələ uşaq yaşlarından qardaşının ən böyük arzusu və amalı olub: "Bir bacı kimi qardaşımdan nə qədər danışsam, buna ömrüm yetməz. Hər zaman onun adını duyduğum yerdə qürurla, fəxrlə, başı dik gəzəcəyəm ki, mən elə bir qəhrəmanın bacısıyam. Mənim üçün acı olsa da, "şəhid qardaşım, şəhadətin mübarək!" deyirəm. Biz dörd bacı Vətən müharibəsində bir qardaş itirsək də, Məhəmməd kimi minlərlə qeyrətli qardaş qazanmışıq".

Sonda onu qeyd edə bilərik ki, Vətən uğrunda qəhrəmancasına şəhidlik zirvəsinə ucalan Məhəmməd kimi oğullarımızın əziz xatirəsi xalqımızın qəlbində əbədi olaraq yaşayacaqdır.

**Allah rəhmət eləsin!**

**mayor Anar Əhmədov**

*Qazilərimiz*

# YENİLMƏZ DÖYÜŞÇÜ RUHU VARSA...

Daxili İşlər Nazirliyi Daxili Qoşunlarının sıralarında layiqincə xidmət etmiş, Vətən müharibəsi qazisi, istefada olan baş çavuş Əliyev Gəncəvi Zahid oğlunun keçdiyi xidmət və döyüş yolu vətənpərvərlik örnəyidir. O, 1991-ci il oktyabrın 23-də Xanlar rayonunun Mirzik kəndində (hazırda Göygöl rayonunun Şəhriyar kəndi) anadan olub. Valideynləri Zahid Əliyev və Navvat Əliyeva Qırğızıstanda doğulublar, bunun səbəbi 1938-ci ildə ailələrinin sovet dövlətinin o vaxtkı repressiya siyasəti nəticəsində Gürcüstandakı doğma yurdlarından sürgün edilməsidir. Uzunillik dövrdən sonra, 1990-cı ilin aprel ayında onlar Azərbaycana gəliblər, hazırkı Şəhriyar kəndində məskunlaşıblar. Gəncəvi çoxuşaqlı, zəhmətkeş və ən əsası da mənəvi dəyərlərimizə bağlı olan ailədə böyüyüb. Onun bir qardaşı və üç bacısı var.

Qardaşı mayor Füzuli Şahrəliyev uzun illərdir Daxili Qoşunlarda xidmət edir, 67987 saylı hərbi hissədə xüsusi təyinatlı dəstə komandirinin tərbiyə işləri üzrə müavinidir. Qazinin əmisi oğlu baş çavuş Mübariz Əliyev isə 17072 saylı hərbi hissədə müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusudur. Qeyd edim ki, Gəncəvinin əmisi Rəşid Əliyev Daxili Qoşunların zabiti olub, hazırda ehtiyatdadır.

Gəncəvi Göygöl rayonunun Şəhriyar kəndindəki şəhid Lətif Məhərrəmov adına tam orta məktəbdə təhsil alıb. Özünün dediyinə görə, orta məktəbdə oxuduğu illərdə onda hərbçi peşəsinə rəğbət və maraq yaranıb.

2010-cu ilin yanvar ayında Gəncəvi müddətli həqiqi hərbi xidmətə çağırılıb. Hərbi Dəniz Qüvvələrinin "N" saylı hərbi hissələrində matros olaraq hərbi xidmət keçib. 2011-ci ilin iyul ayında hərbi xidmətdən tərxis olunub.

2012-ci ilin may ayında Gəncəvi Daxili Qoşunların sıralarında müddətdən artıq həqiqi hərbi xidmətə başlayıb. Qısa müddətdə 17074 saylı hərbi hissə komandirinin sərəncamında olub. Həmin ilin iyul ayında isə 16075 saylı hərbi hissədə xüsusi təyinatlı dəstənin xüsusi kəşfiyyat qrupunda kəşfiyyatçı vəzifəsinə təyin edilib. Sonrakı illərdə burada xüsusi təyinatlı dəstənin xüsusi həmlə qrupunda heyət nəfəri və snayper vəzifələrində xidmət edərək komandanlıq tərəfindən ona göstərilən etimadı doğruldub.

Zoğalı beret daşıma uğrunda xüsusi təyinatlıların yarışında iştirak edərək müvəffəqiyyət qazanıb. Xüsusi təyinatlıya peşəkarlıq rəmzi olan zoğalı beret daşıma hüququ verilib. Vətən müharibəsinədək hərbi xidməti dövründə Gəncəvi dəfələrlə mükafatlandırılıb.

Vətən müharibəsi ərəfəsində ayrı-ayrı qoşun növlərinin xüsusi təyinatlı bölmələrinin təlim toplanışında Gəncəvi də iştirak edərək öz taktiki hazırlığını təkmilləşdirib.

2020-ci ilin sentyabr ayının 27-də erməni işğalçılarına qarşı Vətən müharibəsi başlayanda baş çavuş G.Əliyev öz silahdaşları ilə birgə ön cəbhəyə göndərilib, ilk döyüşlərdən etibarən düşmənə qarşı qətiyyətlə vuruşub. Onun döyüş yolu Cəbrayıl rayonundan Şuşayadək davam edib. Cəbrayıl, Füzuli, Xocavənd rayonlarında bəzi yaşayış məntəqələrinin, habelə yüksəkliklərin, o cümlədən, Laçın dəhlizi və Şuşa şəhərinin işğaldan azad edilməsi uğrunda döyüşlərdə Gəncəvi dəfələrlə ölüm təhlükəsi ilə üzləşib, öz snayper silahı ilə düşmənin ayrı-ayrı mövqelərdəki canlı qüvvəsini ciddi itkiyə məruz qoyub. Döyüşçümüz erməni snayperlərinin bir sıra atəş nöqtələrini susdurmaq, işğalçıların hərbi qulluqçularımıza qurduqları pusqulardan çıxmaq üçün komandirlərin vəziyyətə uyğun verdikləri göstərişləri xüsusi təyinatlı olaraq peşəkarlıq və cəsurluqla yerinə yetirib.

Qazi dedi ki, müharibə zamanı Daxili Qoşunların xüsusi təyinatlıları Müdafiə Nazirliyinin və digər hərbi qurumların aidiyyəti hərbi hissələrinin xüsusi təyinatlılarının da daxil olduqları bölmələrin tərkibində döyüşüblər. Həmin bölmələrin tərkibində vuruşan Daxili Qoşunların xüsusi təyinatlı olan zabitləri öz fədakarlıqları ilə şəxsi nümunə göstəriblər. Onlardan mayor Ələsgər Muxtarov, şəhid zabitlər: kapitan Türkay Hüseynli, baş leytenant Kamran Kazımovun adlarını vurğuladı. Ərazi bütövlüyümüz uğrunda döyüşlərdə həyatını qurban verən gizirlər Mais Səmədov, Faiq Həsənov, baş çavuşlar Anar Vəlizadə, Vüqar Əkbərov, yaralanan silahdaşlarımızdan isə gizir Rasim Yaxin, baş çavuşlar Əhməd Cahangirli, Vasif Əhmədov, çavuşlar Kamal Məmmədli, Sirus Müsüzadə və başqalarının çətin sınaqlardan keçdiklərini nəzərə çatdırdı.



Gəncəvi danışdı ki, döyüşlərdə şəxsi heyət əsasən düşmənin snayper, həm də artilleriya silahlarının, zirehli texnikasının atəşindən şəhid olub və yaralanıb. Onun sözlərinə görə, ön cəbhədə döyüşçülər arasında yoldaşlıq hissləri güclü idi, mənəvi birlik vardı, hər kəs müharibənin əzab-əziyyətinə dözür, bəzən tükənən qida və su ehtiyatını belə bölüşürdü, itkilərin olmasına hamı sarsılırdı, şəhidlər və yaralılar döyüş meydanından atəş altında belə çıxarılırdılar.

16075 saylı hərbi hissədə xüsusi təyinatlı dəstənin komandiri, Vətən müharibəsi iştirakçısı mayor Ələsgər Muxtarov məlumat verdi ki, Gəncəvi hərbi xidmət müddətində həmişə müsbət cəhətdən fərqlənib. Hərbi kollektivdə hörmət qazanıb. Döyüş hazırlığı baxımından öz üzərində çalışan xüsusi təyinatlı olub. 44 günlük Vətən müharibəsində hərbi anda və vətənpərvərlik əqidəsinə sadiq qalıb, ruh yüksəkliyi ilə döyüşüb. Cəbrayıl rayonunda düşmənin müdafiə xəttinin yarılmasından başlayaraq, Şuşayadək keçdiyi döyüş yolunda qorxmaz və bacarıqlı xüsusi təyinatlı olduğunu sübut edib.

16075 saylı hərbi hissənin xüsusi təyinatlı dəstəsində xüsusi həmlə qrupunda atıcı-sanitar, Vətən müharibəsi iştirakçısı çavuş Tahir Babayev Gəncəvi yaralanarkən ona ilk tibbi yardım göstərən hərbi qulluqçulardan biridir. Bildirdi ki, onunla dəstədə eyni qrupda xidmət ediblər. Gəncəvinin yoldaşlıqda etibarlı və qayğıkeş olduğunu söylədi. Qeyd etdi ki, Vətən müharibəsində birgə döyüş yolu keçiblər. İşğalçıların viran qoyduqları torpaqlarımızın qarış-qarış, döyüşçülərimizin canı və qanı bahasına azad olunduğunu dedi. Düşmən bütün istiqamətlərdə xüsusi təyinatlılarımızın həmləleri qarşısında duruş gətirə bilməyib. Vətən müharibəsinin həlledici məqamının Şuşa uğrunda döyüşlər olduğunu vurğuladı. Bu istiqamətdə bir neçə gün şiddətli döyüşlər gedib. Onun dediyinə görə, 2020-ci il noyabrın 6-da Gəncəvi Şuşada qala divarlarının yaxınlığında snayper gülləsindən sol qol və tank mərmisinin partlayışından sinə, qarın nahiyələrindən ağır yaralanıb.

16075 saylı hərbi hissənin xüsusi təyinatlı dəstəsində xüsusi həmlə qrupunda atıcı-sanitar, Vətən müharibəsi iştirakçısı çavuş Orxan Həsənov döyüşlərdə xeyli sayda yaralıya, o cümlədən, Gəncəviyə ağır yaralanarkən ilk tibbi yardım göstərib. Döyüşçünün yaralandığı yerin düşmən tərəfindən atıcı silahlar, artilleriya və tanklardan aramsız atəşə tutulduğunu, orada sağ qalmasının bir möcüzə olduğunu bildirdi. Həmin sahədən çıxarılaraq Gəncəvinin digər yaralılarla birgə villa üslubunda tikilmiş bir evə daşındığını, ora atəşə məruz qaldıqdan sonra şəhərdəki hoteldə yerləşdirildiyini, qanaxmasının dayandırıldığını, yaralarının sarındığını nəzərə çatdırdı. Noyabrın 8-də isə o, təxliyyə edilib.

99713 saylı hərbi hissənin xüsusi təyinatlı dəstəsində xüsusi əməliyyat qrupunda atıcı-snayper, Vətən müharibəsi iştirakçısı çavuş Təbriz Məmmədov ön cəbhədə avtomat və snayper silahı ilə vuruşub. Gəncəvi ilə birgə Laçın dəhlizi üzərindəki yüksəklik və Şuşa uğrunda döyüşlərdə iştirak edib. Onun snayper silahı ilə düşmənə necə sərrast atəş açdığını, işğalçıları vahiməyə saldığını danışdı. Döyüşçü yoldaşı ağır yaralandıqdan sonra onu geriyə təxliyyə edən hərbi qulluqçulardan biri də çavuş T.Məmmədov olub.

Baş çavuş G.Əliyev Şuşadan Hadrutdakı tibb məntəqəsinə, oradan Füzuli Müalicə-Diaqnostika Mərkəzinə göndərilib, daha sonra Gəncə Beynəlxalq Xəstəxanası və Daxili Qoşunların Hərbi Qospitalında müalicəsini davam etdirib. "Sol bazu nahiyəsinin dəlib keçən güllə yarası, sol bazu sümüyünün açıq çoxqəlpəli yerdəyişmiş sınığı, partlayış travması nəticəsində döş qəfəsinin ön səthinin, qarnın ön divarının genişölçülü dəri və yumşaq toxuma defektli, 2-3-cü dərəcəli termiki yanığı" diaqnozu qoyulmaqla qazi üzərində cərrahiyyə əməliyyatları aparılıb, o, lazımi müalicə kursları keçib. Hərbi xidmətə sağlamlığı ilə bağlı yararsız olduğundan Daxili Qoşunların sıralarından istefaya buraxılıb.

Azərbaycan Respublikası Prezidentinin imzaladığı 29.12.2020-ci il tarixli müvafiq sərəncamla, həmçinin, müdafiə nazirinin 28.12.2020-ci il tarixli, daxili işlər nazirinin 26.06.2021-ci il tarixli əmrlərinə əsasən, baş çavuş G.Əliyev "Şuşanın azad olunmasına görə", III dərəcəli "Hərbi xidmətdə fərqlənməyə görə", III dərəcəli "Qüsursuz xidmətə görə" medalları ilə təltif edilib.

Gəncəvi evlidir, Şahin və Zahid adlı azyaşlı övladları var. Ailəsi ilə birgə Sumqayıtda yaşayır. Ön cəbhədən qalib qazi kimi qayıdan Gəncəviyə sağlamlığının bərpa olunmasını, oğullarını özü kimi vətənpərvər yetişdirməyi, nikbin ovqatını qoruyub saxlamağı arzulayırıq. Hər bir mərd oğul Vətənin fəxridir.

**Yalçın Abbasov**

# KEÇİRİLƏN PRAKTİKİ MƏŞĞƏLƏLƏR ŞƏXSİ HEYƏTİN PEŞƏ VƏRDİŞLƏRİNİ TƏKMİLLƏŞDİRİR

12318 saylı hərbi hissənin döyüş hazırlığının qorunub saxlanılmasında xüsusi əhəmiyyət kəsb edən bölmələrdən biri xüsusi təyinatlı dəstədir. “Yarasa” şərti adı verilmiş dəstənin şəxsi heyətinin əsas fəaliyyəti regionda ictimai təhlükəsizliyin qorunub saxlanılması, hüquqazidd əməllərin qarşısının alınması, silahlı cinayətkarların axtarılıb tutulması və zərərsizləşdirilməsidir. Dəstənin şəxsi heyəti hər zaman xidmətdə sayıqlıq və əzmkarlıq nümayiş etdirərək qoyulan tapşırıqların öhdəsindən layiqincə gəlir. Qeyd edim ki, dəstə cari ilin 1-ci yarımilinin xidməti-döyüş fəaliyyətinin yekunlarına əsasən, hərbi hissənin bölmələri arasında birinci yerə layiq görülüb.



Dəstə komandirinin müavini-qərargah rəisi mayor Elman İslamov



bildirdi ki, ilin istənilən fəslində, müxtəlif relyefli ərazilərdə çevik fəaliyyət göstərmək qabiliyyətinə malik olan dəstənin təlimi hissənin digər bölmələrinin müvafiq tədris proqramlarından fərqlənir. Bu isə, öz növbəsində, hərbi qulluqçudan kifayət qədər fiziki güc və möhkəm iradəyə malik olmağı tələb edir.

Bir faktı da qeyd edim ki, 2005-ci ildən Daxili Qoşunların sıralarında xidmət edən mayor E.İslamovun atası, Birinci Qarabağ müharibəsində şəhid olan polkovnik-leytenant Tofiq İslamov da vaxtilə Daxili Qoşunların zabiti olub. Mayor E.İslamov Vətən müharibəsi iştirakçısıdır. 2018-ci ilin iyun ayından 12318 saylı hərbi hissədə xidmətini davam etdirir. 2020-ci ilin aprel ayından hazırkı vəzifədədir.

Mayor E.İslamov vəzifə borclarından irəli gələn tələblərdən danışarkən söylədi ki, hava şəraitindən asılı olmayaraq, şəxsi heyətlə təlimlər davamlı olaraq keçirilir. Döyüş təlimi daxili işlər nazirinin müavini-daxili qoşunların komandanının müvafiq direktivinin tələblərinə əsasən təşkil edilir. Əsas diqqət atəş və fiziki hazırlıqları ilə yanaşı, xüsusi-taktiki hazırlıq, hərbi dağçılıq, hərbi topoqrafiya, həmlə-desant hazırlığı, tək əsgərin döyüş təlimi, ləpirçilik, hərbi-tibbi hazırlıq, hərbi mühəndis hazırlığı və mütəxəssislərlə ixtisas hazırlığı üzrə məşğələlərə yetirilir. Təlimlərdə axtarış fəaliyyətinə üstünlük verilir, cinayətkarların axtarılması və tutulması zamanı hər hansı bir maneə ilə rastlaşdıqda onu ötüb keçmə üsulları öyrədilir. Keçirilən təlimlər hərbi qulluqçuların peşə vərdişlərini təkmilləşdirməklə yanaşı, mənəvi-psixoloji hazırlığını artırır.

Xüsusi təyinatlı dəstənin fəaliyyətinin spesifikliyi barədə danışan komandir müavini onu da vurğuladı ki, çətin iqlim şəraitində təlimlərin təşkil olunub keçirilməsi xüsusilə diqqət mərkəzində saxlanılır: “Təsdiq olunmuş müvafiq plana əsasən, məşğələlər bölmənin üzərinə düşən vəzifələrin və tapşırıqların əhəmiyyətinin dərk edilməsi istiqamətində təşkil olunur. Məşğələlər şəxsi heyətin təhkim olunmuş silaha mükəmməl yiyələnməsinə, əlbəyaxa döyüş fəndlərinin öyrənilməsinə, müxtəlif şəraitlərdə xidməti-döyüş tapşırıqlarının yerinə yetirilməsi zamanı döyüş və digər texnikanın bacarıqla tətbiq edilməsinə, hərbi intizamın möhkəmləndirilməsinə, sayıqlığın artırılmasına, eləcə də fiziki və psixoloji gərginliyə müvəffəqiyyətlə tab gətirilməsinə istiqamətlənir. Ekstremal şəraitlərdə dayanıqlığın, mərdliyin, qətiyyətli fəaliyyətin nümayiş etdirilməsi nəzərdən qaçmayan məsələlərdir”.

Təlimin əsas mahiyyətinin verilmiş döyüş tapşırığının müvəffəqiyyətlə yerinə yetirilməsi olduğunu deyən mayor E.İslamov qeyd etdi ki, praktiki məşğələlər zamanı hərbi qulluqçulara xüsusi metod və vasitələr öyrədilir: “Yüksək döyüş hazırlığının qorunub saxlanılması məqsədilə şəxsi heyət mütəmadi olaraq real döyüş şəraitinə uyğunlaşdırılmış təlimlərə cəlb olunur. Ayda bir dəfə olmaqla, 2-3 günlük “Dəstə reyd fəaliyyətində” mövzusunda xüsusi-taktiki təlim həyata keçirilir. Təlim və məşğələlərin vaxtında müasir metod və üsullarla keçiril-



məsi hərbi qulluqçuların döyüş qabiliyyətinin artırılmasına xidmət edir. Davamlı təlim-məşq prosesinin nəticəsidir ki, hərbi qulluqçular qarşıya qoyulan bütün tapşırıqları məsuliyyətlə icra edirlər”.

Təlimlər zamanı şəxsi heyət tərəfindən təhlükəsizlik qaydalarına ciddi riayət olunur. Mayor E.İslamov məşğələlərdə şəxsi heyətin fəallığını onların mənəvi-psixoloji hazırlığının yüksək olması ilə əlaqələndirdi. Bildirdi ki, bölmənin daim döyüş hazırlığının qorunub saxlanılmasında aparılan keyfiyyətli tərbiyə işinin rolu böyükdür. Bu baxımdan dəstə komandirinin tərbiyə işləri üzrə müavini mayor Elşən Məmmədovun fəaliyyəti danılmazdır.

30 ilə yaxındır ki, Daxili Qoşunların sıralarında xidmət edən mayor E.Məmmədov söylədi ki, hərbi hissədə tərbiyə işi şəxsi heyətin Vətənə sevgi və sədaqət, Azərbaycan Respublikasının qanunlarına, hərbi andın, hərbi nizamnamələrin tələblərinə sözsüz əməl etmək və rəislərə hörmət ruhunda aparılır. Həmçinin, hərbi qulluqçulara Vətənimizin düşmənlərinə nifrət və nəyin bahasına olursa-olsun, torpağı müdafiə etmək hissləri aşılanır. Vətən müharibəsi iştirakçısı olan zabit bu mövzuda ictimai-siyasi hazırlıq məşğələləri, həmçinin, tərbiyə işi saatları keçirildiyini də söylədi.

O, məşğələlərdə xüsusi fəallıq göstərən nümunəvi hərbi qulluqçulardan gizir Rəşad Məmmədov, baş çavuş Cavid Mahmudov, çavuşlar İlkin Rəhmanlı və Pərviz Qasımlının adlarını çəkməyi unutmadı.

**kapitan Xədicə Hacızadə**

# HƏRBİ HİSSƏNİN QABAQCIL BÖLMƏSİ

17074 saylı hərbi hissənin yüksək döyüş hazırlığı və nümunəvi xidməti ilə fərqlənən bölmələrindən biri də kapitan Emin Teymurovun komandiri olduğu xüsusi vasitələrin tətbiqi dəstəsidir.



Dəstə komandiri vəzifəsini icra edən kapitan E.Teymurovun qeyd etdiyi kimi, bölmələr arasında yüksək nailiyyətin əldə olunmasında kollektivin hər bir üzvünün rolu və zəhməti böyükdür.



Əldə olunmuş nailiyyətlərdən və qarşıya qoyulan tapşırıqların müvəffəqiyyətlə icrasından bəhs edən dəstə komandiri bu uğurun səbəbini şəxsi heyətin lazımi hərbi biliklərə mükəmməl şəkildə yiyələnməsində görür: “Tapşırıqların müvəffəqiyyətlə icra olunması şəxsi heyətin qazandığı bilik və vərdişlərdən çox asılıdır. Müvafiq tədris proqramlarına uyğun nəzəri və praktiki məşğələlərin keçirilməsi üçün hərbi hissəmizdə hər bir şərait mövcuddur. Əgər müsbət nəticə istəyiriksə, o zaman şəxsi heyəti bu istiqamətdə mükəmməl hazırlamalı, onların məşğələlərə olan marağının artırılmasını təmin etməliyik. Çəkilən zəhmət, hərbi kollektivin birliyi təbii ki, yüksək nailiyyətlərin qazanılmasına zəmin yaradır”.

Dəstə komandirinin tərbiyə işləri üzrə müavini kapitan Ramil Əsgərov kollektiv arasında mövcud olan möhkəm hərbi intizamın məhz bölmənin qabaqcıllığında böyük rol oynadığını bildirdi. O, bölmədə hərbi intizamın möhkəmləndirilməsində və yüksək nailiyyətin əldə olunmasında əzmkarlıq göstərən hərbi qulluqçuların adlarını da çəkdi. Onlardan baş çavuş Elnur Məmmədov, çavuş Eldar Hüseynov, əsgərlər Elvin Məmmədov, Rəvan Aslanovu bölmənin nümunəvi xidməti ilə fərqlənən hərbi qulluqçuları kimi xarakterizə etdi.

Daxili Qoşunlarda xidmətləri ilə fəxr etdiklərini deyən bu fəallar öz döyüş hazırlıqlarını təkmilləşdirməyə daim səy göstərəcəklərini bildirdilər.

Silahdaşlarımızın vətənpərvər ruhda xidmət etdiklərini görəndə təbii ki, insanın qəlbi fərəh hissi ilə dolur. Onlara bu çətin və şərəfli xidmətlərində uğurlar arzulayırıq.

**baş leytenant**
**Nigar Ağayeva**

# ONU FƏRQLƏNDİRƏN CƏHƏT VƏZİFƏLƏRİNƏ MƏSULİYYƏTLƏ YANAŞMASIDIR

Şəxsi heyətin qarşısına qoyulan tapşırıqların uğurla icrasında, gündəlik xidməti-döyüş fəaliyyətində bir çox faktorla yanaşı, vacib məsələlərdən biri də hərbi qulluqçuların maddi-texniki təminatıdır. Daxili Qoşunların Ali Hərbi Məktəbinin əşya xidməti də maddi-texniki təminat üzrə vəzifələrinin öhdəsindən layiqincə gəlir, verilən tapşırıqları vaxtında və düzgün icra edir.

Qeyd edim ki, şəxsi heyətin lazımi təminat növləri ilə təchizatında əşya anbarı rəisinin üzərinə böyük məsuliyyət düşür. Nümunəvi xidməti, nizam-intizamı ilə fərqlənən tədris prosesinin təminatı bölüyünün təminat taqımında əşya anbarının rəisi baş çavuş Şəhriyar Məmmədlinin fəaliyyəti Ali Hərbi Məktəbin komandanlığı tərəfindən müsbət xarakterizə olunur.

Baş çavuş Ş.Məmmədli 1991-ci il noyabrın 2-də Bakı şəhərində anadan olub. Orta təhsilini Bakı şəhərinin Xəzər rayonunun Mərdəkan qəsəbəsində yerləşən 181 nömrəli tam orta məktəbdə alıb. Müddətli həqiqi hərbi xidmət hərbi qulluqçusu kimi 2010-cu ilin yanvar ayından 2011-ci ilin iyul ayınadək Daxili Qoşunların 12565 saylı hərbi hissəsində xidmət edib.

2011-ci ilin iyul ayından Ali Hərbi



Məktəbdə müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu kimi xidmətə başlayıb. 2014-cü ilin sentyabr ayından hazırkı vəzifədədir.

Əşya anbarının rəisi kimi öz sahəsi üzrə funksional vəzifələrinin icrasına vicdanla yanaşır. Nümunəvi xidmətinə görə dəfələrlə mükafatlandırılıb.

Baş çavuş Ş.Məmmədliyə yeni-yeni uğurlar diləyirik.

**Ali Hərbi Məktəbin**
**ştatdankənar müxbir postu**

*NÜMUNƏVİ XİDMƏT*

# BACARIQLI RADİOTELEFONÇU

Daxili Qoşunların 16073 saylı hərbi hissəsinin nümunəvi xidmətilə fərqlənən müddətli həqiqi hərbi xidmət hərbi qulluqçularından biri də əsgər Elnur Mahmudovdur. O, 2020-ci ilin noyabr ayından 2021-ci ilin fevral ayına kimi Daxili Qoşunların 25032 saylı hərbi hissəsində rabitəçi kursunu keçib. Hərbi hissənin təminat bölüyünün rabitə taqımında radiotelefonçu vəzifəsində xidmət edir.

Əsgər E.Mahmudov 2002-ci il avqustun 1-də Saatlı rayonunun Nərimankənd kəndində anadan olub. Orta təhsilini 2008-2019-cu illərdə Nərimankənd kənd orta məktəbində alıb. Uşaq yaşlarından idmanın karate növünə maraq göstərib və sərbəst şəkildə məşğul olub. 2019-cu ildə təhsilini davam etdirmək məqsədilə Şirvan Dövlət İqtisadiyyat və Humanitar Kollecinə daxil olaraq kompüter şəbəkələri ixtisası üzrə təhsil alıb. 2020-ci ilin oktyabr ayında müddətli həqiqi hərbi xidmətə çağırılıb.

Radiotelefonçu bildirdi ki, rabitə növbətçisi kimi xidmətə cəlb olunur və gündəlik Daxili Qoşunların Baş İdarəsi, eləcə də hərbi hissələrlə rabitə əlaqəsi yoxlanılır, hər hansı nasazlıq baş verərsə, dərhal aradan qaldırılması təmin edilir.

Hərbi qulluqçu xidməti-vəzifə borclarının icrasına məsuliyyətlə yanaşır, qarşıya qoyulan tapşırıqları ləyaqətlə yerinə yetirir, hərbi nizamnamələrin tələblərini bilir və gündəlik xidmətini bu tələblərə uyğun təşkil



edir. O, bölük komandiri tərəfindən müsbət xarakterizə olunur.

**16073 saylı hərbi hissənin**
**ştatdankənar müxbir postu**

# HƏRBİ XƏBƏRLƏR -YENİLİKLƏR-

## ACROB robotları Türkiyə ordusunda xidmətə başlayacaq

“ElektroLand Defence” şirkəti tərəfindən istehsal edilən ACROB mini kəşfiyyat və nəzarət robotları Türkiyə Silahlı Qüvvələrində xidmətə başlayacaq. Bu barədə “Poliqon”a “ElektroLand Defence” şirkətindən məlumat verilib.

Mağaralar, tunellər və terrorçuların gizləndiyi bu kimi obyektlərdə, partlayıcı tələlər qurulan qapalı məkanlarda kəşfiyyatın aparılması üçün nəzərdə tutulan, əl ilə atıla bilən ACROB robotu 6 metr yük-



səklikdən düşdükdə qırılmır və hərbi standartların tələblərinə cavab verir.

Ehtiyac duyulduqda ACROB-un kamikadze robot kimi də istifadə edilməsi mümkündür.

*TƏSİSÇİ:*
Azərbaycan Respublikası DİN
Daxili Qoşunların Baş İdarəsi.
Redaktor: Anar Əhmədov

REDAKSİYANIN ÜNVANI:
AZ 1130, Bakı şəhəri, Q. Musabəyov küç. 4,
Daxili Qoşunların Baş İdarəsi.
Əlaqə telefonları: 560-22-63

Qəzet ayda 2 dəfə nəşr olunur. “Əsgər” qəzetinin redaksiyasında yığılıb səhifələnmiş və DİN-in mətbəəsində hazır elektron variantdan çap olunmuşdur.

Şəhadətnamə 3565
Sayı 3000